İqtisadiyyat.- 2023.- 25-31 may.- S.8.



# Şəfalı əllərin var olsun, Çiçək həkim!

İnsanlar həyata müxtəlif missiyaları yerinə yetirmək üçün gəlir. Elə buna görə də Yer üzündə rəngarəng peşə və sənətlə məşğul olan milyonlarla insan yaşayır. Onların arasında elələri var ki, gecə-gündüz bəşərin sağlamlığının keşiyində dayanır. Bu, həkim peşəsidir. Həkim peşəsi çox müqəddəs və şərəfli peşədir. Nə yaxşı ki, doğma Vətənimizdə həkim peşəsinin böyük məsuliyyətini hiss edən, bu adı layiqincə daşıyan, Hippokrat andına sadiq həkimlərimiz yetəri qədərdir.

Uzağa getməyək, elə post-pandemiya dövründə - bəşəriyyətin başı üzərini dəhşətli virus bəlası alan zaman öz sağlamlığını təhlükə altında qoyub sutkanın 24 saatını iş başında olan həkimlərimiz əsl xalq qəhrəmanına çevrildilər. Digər peşə sahibləri koronavirusa görə evdə işsiz-gücsüz qaldığı halda, həkimlərimiz var-qüvvəsi ilə xəstələrin həyatını xilas etmək üçün gücləndirilmiş iş rejimində çalışırdılar. Etiraf edim ki, öz peşəmi sevdiyimə baxmayaraq, o ağır günlərdə evdə qamaqdan bezdiyimə görə həkim olmadığım üçün acı təəssüf hissi keçirir, fədakar həkimlərimizə, sözün əsl mənasında qibtə edirdim.

Həkimlərimizin qəhrəman şücaəti Qarabağ müharibəsində də özünü bir daha göstərdi. 44 günlük Vətən müharibəsində onların əsgərlərimizlə çiyin-çiyinə döyüşməsi və həyatlarını təhlükə altında qoyaraq hər bir yaralıya tibbi yardım göstərməsi əsl qəhrəmanlıq nümunəsi idi.

1971-ci ilin isti yay günləri idi. Yaydan sonra mütləq barlı bir payız gələcəkdi. Avqustun axırında Məmməd kişinin həyatında da dəyişiklik oldu. Həyata qız uşağı gəlmişdi. Məmməd kişi uşağa qoyulan gül adları ilə razılaşmadı və adını Çiçək qoydu. Gül ətir verdiyi kimi, çiçək də bar verir. Çiçək də bütün balaca qızlar kimi gəlinciklərlə oynamış, güllü-çiçəkli çəmənlərdə gəzərək, öz ömrünün çəhlimlərini açmışdı.

Haqqında söhbət açmaq istədiyim Çiçək həkim də günümüzün qəhrəmanlarındandır.

Əhmədova Çiçək Məmməd qızı 1971-ci il avqustun 25-də Azərbaycanın Qax rayonunda anadan olmuşdur.



1978-1988-ci illərdə Bakı şəhəri Nəsimi rayonu 240 saylı tam orta məktəbdə oxumuşdur.

1988-ci ilin aprelindən Akademik M.A.Qasımov adına Respublika Klinik Xəstəxanasında kiçik tibb bacısı kimi iş fəaliyyətinə başlamışdır.

1991-ci ildə 1 saylı tibb məktəbinin tibb bacısının işi fakültəsinin axşam şöbəsinə daxil olmuş, 1994-cü ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. 1993-cü ildə RKX-nin rəhbərliyinin göstərişi ilə Türkiyənin Ankara şəhərində "Orqan naklı və Yanık tedavi" xəstəxanasında "Hemodializ tibb bacısının işi" üzrə kurs keçərək, sertifikatla təltif olunmuşdur. 1995-2001-ci illərdə Azərbaycan Dövlət Tibb Universitetinin müalicə-profilaktika fakültəsində oxumuşdur. 2002-ci ildə internatura keçmişdir. 2002-ci ildən "Medservis" özəl tibb mərkəzində hemodializ şöbəsində həkim, sonra şöbə müdiri vəzifələrində çalışmışdır. İşlədiyi müddətdə Türkiyədə Başkənd Universitet Klinikasında vaxtaşırı stajer kimi işləmişdir (2004, 2006, 2007-ci illər). Moskva, Sankt-Peterburq, Antalya, İzmir, İstanbul, Roma şəhərlərində keçirilmiş nefroloji konfranslarında iştirak etmişdir. 2009-cu ilin aprelindən Səhiyyə Nazirliyinin tövsiyəsi ilə "Azərsutikinti" xəstəxanasının hemodializ şöbəsinin müdiri vəzifəsinə təyin edilmişdir. Hal-hazırda "Nizami" tibb mərkəzi olaraq, "Azərsutikinti" xəstəxanasının direktor müavini vəzifəsini icra edir. Xroniki böyrək çatışmazlığından əziyyət çəkən şəxslərə tibbi xidmətlərin (hemodializ və ya periton dializi) təşkili və təkmilləşdirilməsi Komissiyasının sədridir.

2012-ci ildə iş göstəricilərinə və tibb işçilərinin peşə bayramı münasibətilə Səhiyyə Nazirliyi tərəfindən "Fəxri fərman"la təltif olunmuşdur.

Çiçək xanım Beynəlxalq Nobel İnformasiya Mərkəzinə tibb eksperti seçilmiş ilk qadındır.

Fəaliyyəti ərzində bir beynəlxalq, üç yerli tibbi nəşriyyatda tibbə aid məqalələri dərc olunmuşdur. MDB məkanında ilk dəfə hemodializdə müalicədə olan qadın xəstədə hamiləliyin tərkibi, əvəzedici böyrək müalicəsinin aparılma üsul və qaydaları ilə sağlam oğlan uşağının doğuşu ilə nəticələnən iş və müşahidələr aparmışdır. İş yerində onlarla orta tibb işçilərinin, gənc həkimlərin peşəkar işçi olmalarına kömək etmişdir. Onun dəstəyi ilə iki tibb bacısı Türkiyə Başkənt Universiteti Klinikasında hemodializ üzrə kurs keçmişlər.

Xəstələrə şəfalı əllərini uzadan Çiçək xanım dializlə bağlı xəstəxanaya müraciət edən bütün xəstələrə ana kimi qayğı göstərir, onların sağlamlıqlarının az müddətdə bərpa olunmasına çalışır. Bir sözlə, Çiçək xanım sanki fitrətən həkim olmaq üçün dünyaya göz açıb. Təsadüfi deyildir ki, o, işlədiyi kollektivin və xəstələrin dərin hörmətini və məhəbbətini qazanmışdır.

Bu, bir həqiqətdir ki, insan öz peşəsinin vurğunu olduğu zaman heç bir çətinlik onu qorxutmur. Öz peşəsinə ürəkdən bağlı olan Çiçək xanıma çiçək kimi təravətli qalmasını, arzularının daim çiçək açmasını arzulayırıq.



**Bəybala Ələsgərov,**
**Beynəlxalq Nobel İnformasiya Mərkəzinin vitse-prezidenti,**
**tarix elmləri doktoru**